

**Cavanşir Feyziyev**

Milli Məclisin deputatı
Fəlsəfə doktoru

# Qoca Şərqin nur mənbəyi – Nizami Gəncəvi

***Azərbaycan Respublikasında 2021-ci ilin 'Nizami Gəncəvi ili' elan edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti cənab İ.Əliyevin 5 yanvar 2021-ci il tarixli sərəncamında deyilir: 'Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir'.***

***Doğrudan da, hələ XII əsrdə N.Gəncəvinin yaratdığı əsərlər bu günədək dünyanın müxtəlif xalqları tərəfindən sevilərək oxunur və yüksək dəyərləndirilir. Yazdığı əsərlərlə yalnız Şərqin deyil, eləcə də dünya ədəbiyyatının görkəmli simalarından birinə çevrilmiş Nizami Gəncəvinin adı həqiqi mənada xalqımız üçün böyük qürur mənbəyidir. Bu günlərdə Nizami Gəncəvi ruhuna ehtiram ifadəsi olaraq dünyanın müxtəlif ölkələrindən çoxsaylı mədəniyyət xadimlərinin Bakıya gəlişi və böyük mütəfəkkirin 880 illik yubiley tədbirlərində iştirak etməsi bir daha Nizami şəxsiyyətinin qlobal miqyasını və universal dəyərini göstərməkdədir.***

Nizami Gəncəvinin həyatı ilə bağlı olan bilgiləri əsasən onun yazdığı əsərlərdən əldə etmək mümkündür. Nizaminin doğum tarixi dəqiq bilinməsə də, doğum ili 1141-ci il olaraq göstərilir. UNESKO da onun doğum tarixini məhz 1141-ci il olaraq qəbul etmiş və 1991-ci il Nizaminin anadan olmasının 850 illik yubileyi şərəfinə UNESKO tərəfindən “Nizami ili” elan edilmişdi. Nizaminin vəfat tarixi ilə bağlı da müxtəlif rəqəmlər göstərilsə də, onun 1209-cu ildə dünyadan köçdüyü ehtimal olunur.

Mənbələrdə şairin əsl adının İlyas, ata adının Yusif, baba adının isə Zəki olduğu qeyd olunur. Ədəbi ləqəb kimi şair “Nizami” sözünü seçmiş və bu adla da məşhurlaşmışdır. Nizami Gəncədə doğulub və ömrünün sonuna qədər bu şəhərdə yaşayıb. Onun yaşadığı dövrdə Gəncə şəhəri Böyük Səlcuq imperiyasının (1077-1307-ci illər) və onun yerli təmsilçiləri olan Azərbaycan Atabəylərinin hakimiyyəti altında idi. Nizaminin yaşadığı dövrdə bu coğrafiyada fars mədəniyyəti hakim olmuş və o da əsərlərini məhz bu dildə yazmaq məcburiyyətində qalmışdır. Əsərlərini fars dilində yazmasına baxmayaraq Nizami Gəncəvi Azərbaycan şairidir və bütün dünya tərəfindən də belə tanınmışdır.

***Nizami yüksək təhsil almış, ərəb və fars ədəbiyyatına dərindən bələd olmuş, riyaziyyat, astronomiya, astrologiya, əlkimya, tibb, botanika, teologiya, Quranın təfsiri, xristianlıq, iudaizm, İran mifləri və əfsanələri, tarix, etika, fəlsəfə, musiqi, təsviri sənət sahələrini də mükəmməl öyrənmişdir.***

***Nizami dünyanın məşhur filosoflarının əsərlərini oxumuş və onlardan ciddi şəkildə bəhrələnmişdi. Nizami yaradıcılığının gücü həmin filosofların zəngin fikirlərini gerçək həyatla əlaqələndirib ədəbi üsullarla təqdim edə bilməyindədir.***

Nizami yaradıcılığını bütövlükdə Şərq intibahının zirvəsi adlandırmaq olar. Onun əsərlərində ümumbəşəri ictimai-siyasi ideyalar aparıcı xəttə çevrilmiş, qlobal humanizm ideyaları üstünlük təşkil etmişdir. Nizami dühası bu gün də yaşayır, o, sərhədləri keçir, dünyanın ayrı-ayrı xalqlarının dillərində ciddi söz sənətinə çevrilir. 2012-ci ilin aprelin 20-də İtaliyanın paytaxtı Roma şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə Roma şəhərindəki məşhur “Villa Borghese” parkında Nizami Gəncəvinin abidəsinin açılışı oldu. Abidənin açılışında Neapol Şərqşünaslıq Universitetinin professoru Mineli Bernardini çıxış edərək, Nizami Gəncəvini yüksək qiymətləndirdi və Azərbaycanın Gəncə şəhərində dünyaya göz açan dahi şairin əsərlərini bütün dövrlər üçün əvəzsiz xəzinə adlandırdı, onun yaradıcılığının Azərbaycan xalqına xidmətlə yanaşı digər xalqlar üçün də böyük əhəmiyyət daşıdığını vurğuladı.



Bu gün doğma vətəni Azərbaycanda Nizami Gəncəvi adı ilə fəaliyyət göstərən çoxsaylı qurumlar mövcuddur. Azərbaycan Respublikası Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu Nizami Gəncəvinin adını daşıyır. Nizami adına Ədəbiyyat Muzeyi də Bakının mərkəzindədir və bu muzeyin yaxınlığında isə böyük şairin heykəli ucalır. 2012-ci ildə yaradılan Beynəlxalq Nizami Mərkəzinin fəaliyyəti özünün beynəlxalq səviyyədə geniş təsir dairəsi və fəaliyyəti ilə diqqəti cəlb edir. Dünyanın tanınmış şəxsiyyətlərinin bu mərkəzdə toplaşması və Azərbaycan naminə faydalı işlər görməsi olduqca əhəmiyyətlidir.

Nizami dünyası intəhasız bir dəryadır. İllər keçir, əsrlər dəyişir, amma Nizami Gəncəvi fəlsəfəsinin əsasını təşkil edən dəyərlər dəyişmir və beləcə Nizami Gəncəvi şəxsiyyətinin özü də milli sərhədləri aşaraq universal bir dəyərə çevrilir. Azərbaycan xalqının xoşbəxtliyi də məhz belə bir dəyərə sahib olmasındadır.

### Nizami Gəncəvi yaradıcılığı

Böyük Azərbaycan şairinin ədəbi irsi ilə tanış olarkən burada Şərqə məxsus ədəbi-mədəni dəyərlərin təsviri və tərənnümü ilə yanaşı Qərb mədəniyyətinin də nümunələri ilə qarşılaşmaq mümkündür. Bu Nizami Gəncəvinin mənsub olduğu sivilizasiya dəyərlərindən daha geniş, universal dəyərlərin daşıyıcısı, tərənnümçüsü və təbliğatçısı olan dünya miqyaslı bir mütəfəkkir olduğunun göstəricisidir.

***Ədəbiyyatda yüksək insan ideallarının öz əksini tapması Nizaminin ən böyük yaradıcılıq xidməti sayıla bilər. Onun bütün əsərləri ədəbiyyatla real həyatı əlaqəli şəkildə oxucuya təqdim etmək ruhundadır. Nizami sənətinin böyüklüyü insan psixologiyasının mürəkkəbliyini açıb göstərə bilməsi bacarığındadır. O, bu yanaşması ilə ədəbiyyatın bəşər mədəniyyətinin inkişafındakı böyük əhəmiyyətini üzə çıxarır.***

Nizami yaradıcılığı ilk növbədə davamlı olaraq müxtəlif ictimai problemlərin qoyuluşu ilə diqqəti cəlb edir. O, əsərlərində ictimai problemlərə toxunmaqla yanaşı, həm də onların həlli yollarını göstərir. Nizami yazır ki, cəmiyyəti idarə edən şəxslər adil hökmdarlar olmalı, insanların qayğısına qalmalı, onları incitməməli, yaxşı yaşamalarına şərait yaratmalıdırlar. Nizami yaradıcılığında zülm və zorakılığa, haqsızlığa, ədalətsizliyə qarşı ciddi etirazlar var. O, insanın xoşbəxt yaşamasına mane olan bütün qayda-qanunları özünəməxsus üslubda və formada tənqid edir, etiraz səsini ucaldır. Onun yaradıcılığının istiqamətləndiyi humanizm bütün Nizami yaradıcılığının əsas və aparıcı ideyasıdır. Humanizm anlayışı isə elə bu gün də müasir dünyanın universal dəyərə çevrilmək üçün çalışdığı bəşəri bir ideyadır. Məhz buna görə humanist fikirlərlə zəngin olan Nizami yaradıcılığı 8 əsr öncəki ictimai şüurun kanonlarına görə olduqca işıqlı və dəyərlidir.

***N. Gəncəvinin yaratdığı beş poemadan ibarət 'Xəmsə'si ('Sirlər Xəzinəsi', 'Xosrov və Şirin', 'Leyli və Məcnun', 'Yeddi gözəl', 'İskəndərnamə') dünya ədəbiyyatının zənginləşməsinə mühüm təsir göstərmişdir.***

***Nizami yaradıcılığında fəlsəfi yükü, humanist yönümlü və nəsihət xarakterli olması ilə seçilən problemlərin qoyuluşuna ilk olaraq 'Sirlər xəzinəsi'ndə rast gəlirik. O, bu əsərini 1174-cü ildə yazıb. Hekayə və rəvayətlərdən faydalanaraq Nizami böyük peşəkarlıqla cəmiyyət üçün vacib olan problemləri öz əsərlərinin süjetinə gətirir. Bundan ötrü o, müxtəlif qaynaqlara əsaslanır, folklor nümunələrindən ciddi bəhrələnir. Giriş hissədən, 20 məqalət və hekayətdən ibarət olan 'Sirlər xəzinəsi' o zamanlar Yaxın və Orta Şərq ədəbiyyatında yaranan ən maraqlı əsər idi. Dahi Nizami bununla həm də yeni bir ədəbi məktəbin əsasını qoymuşdu.***

1180-ci ildə Nizami “Xosrov və Şirin” poemasını yazaraq, yaradıcılığında ilk olaraq romantik cığırın izini açdı. Əsərin mövzusu İran Sasani hökmdarlar sülaləsinin tarixindən götürülüb. Nizami bu əsərini məhəbbətin tərənnümünə həsr etmiş, onun insanı mənəvi cəhətdən zənginləşdirməsini, kamilləşdirməsini və uca mərtəbələrə qaldıra bilmək gücünü təqdim etmişdir. Poemada məhəbbətin gücü ilə insan xarakterinin bütövlükdə dəyişə bilməsinin mümkünlüyü əsaslandırılmışdır.

Nizaminin say etibarilə “Xəmsə”yə daxil olan üçüncü poeması “Leyli və Məcnun”dur. O, bu əsərini 1188-ci ildə yazıb. Əsər Şirvanşah Axsitanın sifarişi ilə yazılıb və Nizami bu əsəri ilə ölməz bir məhəbbət dastanı yaratmağa nail olub. Yaxın və Orta Şərq mühitində bu mövzu geniş yayılsa da, bu haqda ilk ədəbi əsəri məhz Nizami Gəncəvi yazmışdır. Məlum olduğu kimi, Nizamidən sonra da bu mövzuda çoxsaylı əsərlər yazıldı. Digər böyük Azərbaycan şairi Füzuli də özünün “Leyli və Məcnun” adlı əsərini məhz Nizamidən ilhamlanaraq yazmışdı.

***Nizami 'Leyli və Məcnun' əsərində insanın azadlıq duyğularını, azad sevib-sevilmək hisslərini təsirli ifadə vasitələrilə təqdim etməyi bacarmışdır. Əsərin sonluğu faciə ilə yekunlaşsa da, şair o zamankı ictimai mühiti və o mühitin daşlaşmış qaydalarını bu faciənin əsas səbəbləri kimi təqdim edirdi.***

Nizami Gəncəvi 1197-ci ildə “Yeddi gözəl” və 1203-cü ildə isə “İskəndərnamə” poemalarını yazdı. Bu əsərlər onun ciddi axtarışlarının nəticəsi idi. Tarixi mövzuda yazılmış bu əsərlərində Nizami əslində özünün humanist fikirlərinin təbliği üçün real həyat hekayələrinə müraciət etmişdi. O, İskəndər obrazı ilə ədalətli hökmdarın üzərinə düşən vəzifələri və ədalətin özünün meyarlarını açıqlamışdı.

Nizami Gəncəvi poeziyası əsasən sevgi motivləri üzərində qurulmuşdu. Onun əsərlərində sevgi mövzularının üstünlük təşkil etməsinin səbəbini bu mövzunun həmin dövrdə Şərq ədəbiyyatında daha geniş yayılması ilə əlaqələndirmək olar. Lakin Nizami yaradıcılığında sevgi mövzusu öz dövrünün populyarlıq sevgisindən tamamilə fərqli bir yanaşma idi. Onun poeziyası öz dövrünün digər şairləri kimi gecələrin işıqlı mələklərini sevməyə, gündüzlərin qaranlıq iblislərini lənətləməyə yönəlməmişdi. Onun sevgisi İnsana və bəşəriyyətə, bütövlükdə həyata ünvanlanırdı və bu baxımdan daha qlobal fikir tutumuna və məna gücünə malik idi. Bəşəri hisslərin tərənnümçüsü olan böyük şair Nizami milliyyətindən, dinindən asılı olmadan bütün insanları alicənab olmağa, ləyaqətli davranışa, həyata və insanlığa sevgiyə çağırırdı.

Nizami Gəncəvi ədəbiyyatda zəhməti yüksək qiymətləndirən, əməksevərliyi təşviq edən, daim öz üzərində çalışmağı tərənnüm edən, gənc nəsli elm öyrənməyə, dözümlü və məqsədəyönlü olmağa çağıran, çətinliklərlə mübarizə aparmağa səsləyən ilk şairlərdəndir. O deyirdi:

**Bilik öyrənməyi ar bilən hər kəs,**
**Dünyada mərifət qazana bilməz.**
**Qüvvət elmdədir, başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca zirvədən, bilin ki, fəqət**
**Alimin rütbəsi ucadır, əlbət!**

***Mənbələrdə şairin əsl adının İlyas, ata adının Yusif, baba adının isə Zəki olduğu qeyd olunur. Ədəbi ləqəb kimi şair “Nizami” sözünü seçmiş və bu adla da məşhurlaşmışdır. Nizami Gəncədə doğulub və ömrünün sonuna qədər bu şəhərdə yaşayıb. Onun yaşadığı dövrdə Gəncə şəhəri Böyük Səlcuq imperiyasının (1077-1307-ci illər) və onun yerli təmsilçiləri olan Azərbaycan Atabəylərinin hakimiyyəti altında idi. Nizaminin yaşadığı dövrdə bu coğrafiyada fars mədəniyyəti hakim olmuş və o da əsərlərini məhz bu dildə yazmaq məcburiyyətində qalmışdır. Əsərlərini fars dilində yazmasına baxmayaraq Nizami Gəncəvi Azərbaycan şairidir və bütün dünya tərəfindən də belə tanınmışdır***

**(ardı gələn sayımızda)**